# Mədəniyyət məhsullarının xaricə aparılması barədə

**1. Mədəniyyət sərvətlərinin Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi Qaydaları:**

Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən mədəniyyət sərvətləri gömrük orqanına mütləq yazılı formada bəyan edilməlidir.

Mədəni sərvətlərin müvəqqəti ixracı Azərbaycan Respublikasının rezidenti olan bütün hüquqi və ya fiziki şəxslər tərəfindən həyata keçirilə bilər.

Sərgi, qastrol səfərləri, bərpa işləri, prezentasiya, beynəlxalq mədəniyyət tədbirlərinin keçirilməsi halları istisna olmaqla, Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısına daxil edilmiş mədəni sərvətlərin Azərbaycan Respublikasının ərazisindən aparılması qadağandır.

Şəhadətnamə olmadan mədəni sərvətin Azərbaycan Respublikasının gömrük ərazisindən müvəqqəti ixrac edilməsi qadağandır.

Azərbaycan Respublikasının gömrük sərhədindən mədəniyyət sərvətlərini müvəqqəti ixrac edən şəxs Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada gömrük orqanına onların 36 (otuz altı) ay ərzində geri qaytarılması haqqında öhdəlik təqdim etməlidir.

Fiziki şəxslər daimi olaraq xarici ölkədə yaşamaq üçün Azərbaycan Respublikasının ərazisini tərk etdiyi halda, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi həmin şəxslərə mədəni sərvətin dəyərini müəyyən edən sənəddə göstərilən məbləği birdəfəlik ödəməlidir.

**Azərbaycan Respublikasının ərazisində olan aşağıdakı daşınar əşyalar bu məqsədlər üçün mədəni sərvətlər hesab edilir:**

-təsviri sənət əsərləri, o cümlədən lövhələr, şəkillər, rəsmlər, qravüralar, estamplar, litoqrafiyalar, naxışlar, heykəltəraşlıq əsərləri, orijinal bədii toplular və montajlar;
- kino, xüsusi əhəmiyyətli televiziya, radio, video materialları, fotoəsərlər və fotomateriallar, dizayn işləmələri və memarlıq layihələri;
- əlyazmalar, xüsusi əhəmiyyətə malik kitablar və kitabçalar, dövri mətbuat materialları, avtoqraflar, markalar, açıqcalar, mədəniyyət və tarix profilli arxivlər və arxiv sənədləri, not yazıları, məktublar, elmi-tarixi yadigarlar, nadir nəşrlər;
- tətbiqi-sənət əsərləri - xalılar və xalça məmulatları, qızıl, platin, gümüş, qiymətli daşlar, mis və gildən hazırlanmış əşyalar, keramika məmulatları;
- səhnə və ekran geyimləri, dekorları, butaforiya və rekvizitləri;

- qədim nadir kolleksiyalar və 1960-cı ildən əvvəlki dövrə aid olan muzey əhəmiyyətli əşyalar (o cümlədən, mebel, musiqi alətləri və s.);
-şifahi xalq yaradıcılığı nümunələri;
- arxeoloji və numizmatik xarakterli əşyalar;
- flora və fauna, mineralogiya, anatomiya nümunələri və paleontologiya baxımından maraqlı muzey əşyaları.

---

***ƏSASLAR :***

***Azərbaycan Respublikası Gömrük Məcəlləsi;***

***"Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanunu;***

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29 avqust 2014-cü il tarixli 294 nömrəli qərarı ilə təsdiq edilmiş*** **"Mədəni sərvətlərin idxalı, ixracı və Azərbaycan Respublikasının ərazisindən tranzitlə keçirilməsi Qaydası"*****;***

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29 avqust 2014-cü il tarixli 293 nömrəli qərarı ilə təsdiq edilmiş*** **"Sərgi, qastrol səfərləri, bərpa işləri, təqdimat, beynəlxalq mədəniyyət tədbirlərinin keçirilməsi ilə əlaqədar mədəni sərvətlərin müvəqqəti ixracı Qaydası".**